# Azərbaycan müstəqillik və inkişaf yolu ilə uğurla irəliləyir



*Bu gün biz müstəqil ölkə kimi yaşayırıq, müstəqil siyasət aparırıq, heç kimin işinə qarışmırıq, heç kimə də imkan vermirik ki, bizim işimizə qarışsın. Əminəm ki, biz bundan sonra da bu müstəqillik və inkişaf yolu ilə gedəcəyik.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

***Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, uzaqgörən siyasəti, milli birliyimiz və ordumuzun güc-qüdrəti, qəhrəmanlığı sayəsində ötən il sentyabrın 27-dən başlayan və 44 gün davam edən Vətən müharibəsində ölkəmizin erməni işğalçıları tərəfindən pozulan ərazi bütövlüyü bərpa edildi. Beləliklə, 30 il ərzində aparılan danışıqlar prosesində düşmən dövlətin reallaşdırmaq istədiyi niyyət gerçəkləşmədi, Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi cəhdi uğursuzluqla nəticələndi, bu bölgədə yeni erməni dövlətinin yaradılması planı isə tamamilə alt-üst oldu.***

Azərbaycan torpaqlarını erməni işğalından azad etməklə həm də Cənubi Qafqazda yeni geosiyasi reallıqlar yaratdı. Respublikamızı Naxçıvanla birləşdirən dəmir yolu və avtomobil yolunun təmin edilməsi qərara alındı. Beynəlxalq təşkilatlar, nüfuzlu dövlətlər tərəfindən Zəngəzur dəhlizinin–olduqca vacib bir kommunikasiyanın bərpası təkcə respublikamızın deyil, qardaş Türkiyənin, eyni zamanda, digər qonşu ölkələrin də iqtisadi maraqlarının reallaşdırılması baxımından mühüm önəm daşıması, regionda sabitlik və təhlükəsizliyin daha da möhkəmləndirilməsi istiqamətində atılan növbəti addım kimi dəyərləndirildi.

Sözügedən yol-nəqliyyat infrastrukturunun bərpası bu gün prioritet istiqamət kimi xüsusi diqqət çəkir. Bu, təsadüfi deyil. Çünki Cənubi Qafqaz regionunun nəqliyyat və iqtisadi əlaqələrinin yüksək səviyyədə qurulması, bu yöndə siyasi, iqtisadi münasibətlərin möhkəmlənməsi üçün başlıca amillərdən biridir. Bu yol-nəqliyyat infrastrukturu layihəsinin icrası regional inteqrasiya və iqtisadi inkişafın yeni mərhələyə daxil olmasını şərtləndirir.

Yeri gəlmişkən, hazırda bir sıra Qərb ekspertləri tərəfindən Azərbaycanın Qərbə və Şərqə çıxışın qovşağında yerləşən, əzəli torpağı olan Qarabağı düşməndən təmizləməklə qonşu ölkələr sırasında özünün geosiyasi və geoiqtisadi kursunu daha çox dəqiqləşdirmək imkanı əldə etdiyi bildirilir. Başqa sözlə, Vətən müharibəsində parlaq qələbə nəticəsində ərazi bütövlüyümüzün bərpası respublikamızın regional, daha çox da beynəlxalq səviyyədə iqtisadi, siyasi, sosial-mədəni üstünlüklər qazanmasını şərtləndirir. Bununla bərabər, Şimal-Cənub və Şərq-Qərb dəhlizlərinin qovşağında yerləşməsi Azərbaycanın qarşısına həm Xəzər-Qara dəniz hövzəsində, həm Cənubi Qafqazda, həm də Orta Asiya və Yaxın Şərqdə məqsədyönlü geoiqtisadi fəaliyyətinə səmərəli şərait yaradır.

Bu gün Qarabağ kimi geoiqtisadi dəyərlərə malik olan ərazinin regional və beynəlxalq perspektivliyini yüksəldən, xarici ölkələrlə əməkdaşlıq əlaqələrinə müsbət təsir göstərən amillər daha çox regionun təbii-mineral ehtiyatları, Şimalla Cənub, Qərblə Şərq arasında mövcud nəqliyyat-kommunikasiya və tranzit imkanları ilə bağlıdır.

Hazırda işğaldan azad edilən Qarabağ regionunun iqtisadi potensialına və milli təbii resurslarına yenidən sahib olan Azərbaycan Cənubi Qafqazın çox güclü ölkəsinə çevrilib. Respublikamızın Cənubi Qafqazın insan resurslarının 60 faizinə, yanacaq-enerji, dağ-mədən, təbii-mineral və münbit torpaq resurslarının 90 faizinə, iqtisadi potensialın isə 80 faizinə malik olması bu fikrin təsdiqidir.

Bu gün Ermənistanı qarşıdurmaya yönəltməyə çalışan və qonşu ölkələrlə dinc-yanaşı yaşamasını əngəlləməyə cəhd göstərən radikal çevrələrin, revanşistlərin mövcudluğu sirr deyil. Ən qəribəsi odur ki, həmin qüvvələr erməni xalqına alternativ heç nə təqdim edə bilmirlər. Yalnız quru pafos, əsassız siyasi iddialar və əlçatmaz hədəflər barədə mülahizələr bildirirlər. Onlar hələ də anlamaq istəmirlər ki, iki və çoxtərəfli əməkdaşlığın qurulması bölgənin yeganə böhran içində olan ölkəsinə – Ermənistana hamıdan çox gərəkdir.

Hazırda Ermənistanda siyasi ab-hava ağır vəziyyətdədir. Düşmən ölkənin istər müxalifəti, istərsə də iqtidarı heç bir normal gələcək mövzusunu gündəmə gətirə bilmir. Bunun səbəbini erməni cəmiyyəti də yaxşı bilir. Otuz illik işğal siyasəti onların gələcək perspektivlərini tamamilə alt-üst edib. Artıq Ermənistan cəmiyyəti bunu dərk etməyə başlayıb: ötən illər ərzində keçmiş iqtidar Ermənistanda işğal, təcavüz, talançılıq siyasəti reallaşdırılıb, respublikanın bütün var-dövləti talanıb, ölkə regional əməkdaşlıqdan, mümkün iqtisadi imkanlardan tamamilə məhrum edilib. Bu isə xalqın sosial-iqtisadi durumunu son dərəcə ağırlaşdırıb. Bununla belə Ermənistanda hazırda bu məsələlərə dürüst qiymət vermək istəyən qüvvələrə az da olsa, rast gəlinir. Məsələn, “RİA Novosti”yə müsahibəsində Ermənistanın sabiq müdafiə naziri Vaqarşak Arutyunyan ölkəsinin Azərbaycanın qərb bölgələri ilə Naxçıvan arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyi üçün üzərinə düşən öhdəlikləri yerinə yetirəcəyi təqdirdə, bunun Ermənistan üçün mühüm önəm daşıdığını diqqətə çatdırıb.

İndi Qarabağda yeni dövr – quruculuq mərhələsi, postmünaqişə dövrü başlayıb. Qarabağ münaqişəsi artıq öz həllini birtərəfli qaydada tapıb. Azərbaycan Prezidentinin bildirdiyi kimi, bunu həll edən tərəf isə Azərbaycan dövlətidir: “Biz ərazi bütövlüyümüzü bərpa etmişik. Biz qələbə qazanmışıq. Bizim bu gün gündəlikdə duran hər hansı başqa bir məsələmiz yoxdur. Biz öz sərhədlərimizə çıxmışıq, Ermənistan-Azərbaycan sərhədini nəzarətə almışıq. Biz artıq quruculuq işlərinə başlamışıq. Əgər kimsə deyirsə ki, münaqişə həll olunmayıb, gəlsin desin, bunun həllini necə görür, nə həll olunmayıb? Əgər dırnaqarası Dağlıq Qarabağın statusundan söhbət gedirsə, mən demişəm, Azərbaycan ərazisində Dağlıq Qarabağ adlı ərazi vahidi yoxdur. Ümumiyyətlə, bu söz, ifadə işlədilməməlidir. Dağlıq Qarabağ yoxdur, Qarabağ var. İyulun 7-də imzaladığım fərman əsasında Qarabağ iqtisadi zonası yaradıldı, vəssalam. Bütün Qarabağa aid olan rayonlar orada birləşib. Şərqi Zəngəzur iqtisadi zonası yaradılıb...”.

“Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı bu istiqamətdə atılan önəmli addımdır. Bu fərman tarixi ədalətin bərpa olunması deməkdir. Yeri gəlmişkən, dövlətimizin başçısının adı çəkilən fərmanında ölkəmizin iqtisadi rayonlarının yeni bölgüsünü fərqləndirən bir sıra məqamlar öz ifadəsini tapıb. Belə ki, Bakı Abşeronun tərkibindən ayrılaraq, ayrıca bir iqtisadi rayon kimi qəbul edilib. Bundan başqa Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları da yaradılıb.

Azərbaycanın ərazilərinin işğaldan azad edilməsi Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının təsis olunmasını şərtləndirib. Xatırladaq ki, Qarabağ iqtisadi rayonuna Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları daxil edilib. Şərqi Zəngəzur iqtisadi rayonu isə Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları əsasında qurulub.

Beləliklə, Bakı, Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının yaradılması ilə Azərbaycan iqtisadiyyatı üç dəfədən çox böyüyüb, iqtisadiyyatın regional və sektoral strukturu dəyişib, habelə Qarabağın iqtisadi dövriyyəyə qayıtması və regional kommunikasiyaların, o cümlədən, Zəngəzur dəhlizinin açılması perspektivi yeni reallıqlar üzə çıxarıb. Fərmanda göstərildiyi kimi, Qarabağ bölgəsinin sürətli inkişafına zəmin yaranıb. Hazırda Qarabağda geniş miqyasda bərpa-quruculuq işləri aparılır. Böyük Qayıdış proqramı çərçivəsində müasir texnologiyalara əsaslanan “ağıllı şəhər”, “ağıllı kənd” layihələrinin icrası diqqətdə saxlanılır. Həm Qarabağda, həm Şərqi Zəngəzurda yeni elektrik xətləri, həmçinin ötürücü xətlər çəkilir, transformatorlar, yarımstansiyalar qurulur. Bütün bunlarla yanaşı, yol infrastrukturunun da bərpasına mühüm önəm verilir. Müharibədən sonra bu istiqamətdə başlanan işlər bu gün sürətlə davam etdirilir. Bərdə-Ağdam avtomobil yolu tikilir, Zəfər yoluna asfalt döşənməsinin sentyabr ayında yekunlaşması nəzərdə tutulur. Paralel olaraq Füzuli-Şuşa, Horadiz-Ağbənd yolları çəkilir. Zəngilan-Qubadlı-Laçın, eyni zamanda, Füzuli-Hadrut, Füzuli-Cəbrayıl yollarının tikintisi də sürətlə aparılır. Bütün bunlarla bərabər, Kəlbəcərə rahat çatmaq üçün Göygöldən Ömər aşırımı üzrə yolun çəkilişi də diqqətdə saxlanılır. Bütün bu genişmiqyaslı quruculuq tədbirləri nəticəsində yaxın zamanlarda əhalinin yenidən öz doğma yurd-yuvasında məskunlaşdırılması nəzərdə tutulur.

Göründüyü kimi, bu gün Azərbaycan işğaldan azad edilən ərazilərdə nəhəng quruculuq işləri həyata keçirməklə bir daha bu torpaqların əsl sahibi olduğunu dünyaya göstərir. Belə olan halda rəsmi İrəvanın yenə də dinc dayanmaması, dövlət sərhədimizdə təxribatlar törətməsi işğalçı ölkənin hər şeydən əvvəl xalqının taleyi ilə oynadığını göstərir. Ancaq Ermənistan hakimiyyəti bilməlidir ki, əgər Azərbaycan yeni bir antiterror əməliyyatına başlayarsa, bunun nəticəsinə qatlanmaq onun üçün ikiqat çətin olacaq. Çünki yeni bir müharibə hərbi-iqtisadi baxımdan tükənən Ermənistanın bir dövlət kimi sonu deməkdir.

Bəli, Qarabağın sürətlə bərpası ilə bərabər, respublikamızın bütün bölgələrində inkişaf dinamikası açıq-aşkar nəzərə çarpır. Bu, cari ilin ilk yarısının sosial-iqtisadi göstəricilərində də diqqət çəkir. Belə ki, bu dövrdə ölkədə 39 915,0 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,1 faiz çox ümumi daxili məhsul istehsal edilib. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 4,7 faiz azalsa da, qeyri-neft-qaz sektorunda 5,1 faiz artıb. Əhalinin hər nəfərinə düşən ÜDM 3 987,6 manata bərabər olub. Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2021-ci ilin yanvar-iyun aylarında 23,1 milyard manatlıq sənaye məhsulu istehsal edilib.

İlin ilk yarısında iqtisadiyyat 2 faiz artıb. Qeyri-neft sektoru 5 faizdən çox yüksəlib, qeyri-neft sənayesi 16,6 faiz artıb. Kənd təsərrüfatı 5,6 faiz yüksəlib. İnflyasiya məqbul hesab edilən səviyyədə – 4,3 faiz olub. Respublikada altı ay ərzində valyuta ehtiyatları 1 milyard dollar həcmində artıb. İxrac 15 faiz, qeyri-neft ixracı isə 27 faizdən çox artıb, xarici ticarətdə müsbət saldo 3,4 milyard dollar təşkil edib.

Bütün bu inkişaf, tikinti-quruculuq işlərinin dönməz xarakter alması təsadüfi deyil. Bu, son 18 ildə Prezident İlham Əliyevin Azərbaycanda praqmatik və realist siyasət yürütməsinin, ulu öndər Heydər Əliyevin siyasi kursuna istinad etməklə, bu dahi şəxsiyyətin ideyalarını siyasi, sosial-iqtisadi sahələrdə layiqincə reallaşdırmasının məntiqi nəticəsidir.

Dövlətimizin başçısı ötən illər ərzində Azərbaycanda müstəqil dövlətçilik ənənələrini formalaşdırıb, respublikamızın gələcək uğurlarına əsaslı təminat yaradıb. Ölkəmiz hazırda regionda həyata keçirilən qlobal enerji və kommunikasiya layihələrinin təminatçısına çevrilib, ümumi daxili məhsulun artım tempinə görə dünyanın lider dövlətləri sırasına yüksəlib, respublikada sosial problemlərin həlli – işsizliyin, yoxsulluğun aradan qaldırılması, infrastrukturun bütün sahələrdə yeniləşdirilməsi istiqamətlərində önəmli addımlar atılıb, vətəndaşların firavan, azad yaşayışı, insan hüquq və azadlıqlarının təmini, habelə demokratikləşmə yolunda önəmli tədbirlər həyata keçirilib.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***